*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 73-81*

https://doi.org/10.62837/2025.5.73

orcid kod: 0000-0003-0684-9374
**CƏFƏROVA NABAT BEYDULLA QIZI**,
Pedaqogika üzrə elmlər doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 68

# DİL QAYDALARININ LEKSİKA İLƏ İNTEQRATİV TƏDRİSİ

**Xülasə**

Məqalədə dil qaydalarının öyrənilməsində leksika ilə inteqrasiya edilməsinin əhəmiyyətindən bəhs edilir. Nitq hissələrinə dair dil qaydalarının leksika ilə inteqrativ tədrisi ilk növbədə nitqdə sözün anlaşılmasını dəqiqləşdirir, lüğət ehtiyatını zənginləşdirir. Dil qaydalarının mənimsənilməsi, o cümlədən müxtəlif nitq hissələrinə verilən təriflər, leksik şəkilçilərin köməyi ilə yaranan düzəltmə əsas nitq hissələri və konkret olaraq onları müəyyənləşdirən morfoloji təhlil qaydaları leksik anlayışların formalaşdırılmasında mühüm rol oynayır.

Bu zaman üç tələbə diqqət yetirmək lazımdır: şagirdlərin məsələyə şüurlu yanaşmaları və dil qaydalarının məzmununu yaxşı dərk etmələri; mənimsənilənləri möhkəm yadda saxlamaları; öyrənilmiş məlumatı tez və yerli-yerində öz şifahi və yazılı nitqlərində tətbiq etməyi bacarmaları.

Dil qaydalarının öyrədilməsi zamanı buraxılan səhvlərdən biri həmin qaydaların mexaniki olaraq əzbərlənməsidir. Leksik işlərin aparılması, cümlə qurmaq vərdişlərinin yaranması dil qaydalarının şüurlu mənimsənilməsinin əsas yekunudur. Şifahi nitqin inkişafında isə leksik bazanın, cümlələrin rolu danılmazdır.

Azərbaycan dilinin dil qaydalarının tədrisində lüğət üzrə aparılan işlərin müstəsna əhəmiyyəti vardır. Dil qaydası kimi, nitq hissələrinin qrammatik-leksik təsnifi geniş məzmuna malikdir. Dil qaydalarının qrammatik-leksik təsnifi fonetika, morfologiya və sintaksislə, şagirdlərin şifahi və yazılı nitqlərinin inkişafı, onların lüğət ehtiyatı, dilimizin orfoqrafik xüsusiyyətləri ilə sıx əlaqədardır.

**Açar sözlər: Azərbaycan dili, dil qaydaları, leksika, inteqrasiya, tədris**

Dil qaydalarının yeri və əhəmiyyəti Azərbaycan dili fənn kurikulumunun məzmun xətləri içərisində xüsusi olaraq qeyd olunur. Dil qaydalarının öyrənilməsi işi Azərbaycan dili dərslərində şagirdlərinin əsas fəaliyyət istiqamətlərindən biri kimi qiymətləndirilir. Şagird dil qaydalarını mənimsəyərkən aşağıdakı keyfiyyətlərə yiyələnir:

- dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı minimum bilikləri yığcam, sadə, aydın qayda və şərhlər formasında mənimsəyir;
- orfoqrafiya və orfoepiya qaydalarına dair zəruri vərdişlərə yiyələnir;
- durğu işarələrinin əhəmiyyəti, ondan düzgün istifadə olunması zərurətini dərk edir;

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 73-81*

- mədəni nitq üçün vacib olan nitq bacarıqlarını mənimsəyir;
-bütün bunların təcrübədə tətbiqinə nail olunur.

Azərbaycan dili kurikulumunda dil qaydalarının öyrənilməsi probleminə çox geniş yer verilsə də, bu məsələ ilə bağlı nəzərdə tutulanları konkret şəkildə aşağıdakı kimi ümumiləşdirmək olar: şagirdlər dil qaydalarının mənimsənilməsi zəminində "zəruri fonetik, leksik, qrammatik anlayışları izah edir, onları bir-birindən fərqləndirir, mülahizələrini müxtəlif üsullarla əsaslandırır və təqdim edir, şifahi və yazılı nitqlərində dilə aid qaydaları mənimsədiyini nümayiş etdirir [1, s.15].

Leksik anlayışların elmi zəmində formalaşdırılmasında dil qaydalarının mənimsənilməsi, yəni əsas nitq hissələrinin tərifləri, nitq hissələrinin morfoloji təhlil qaydaları böyük əhəmiyyət kəsb edir. Bu zaman üç cəhətin gözlənilməsi zəruridir:

- dil qaydalarının şüurlu dərk edilərək öyrənilməsi;
- məzmunun mənimsənilməsi;
- dil qaydalarının yaddaşda saxlanılması;
- öyrənilən dil qaydalarının şifahi və yazılı nitqdə tətbiq edilməsi.

Dil qaydalarının öyrənilməsi zamanı əzbərçiliyə yol verilməməli, şüurlu yanaşma əsas götürülməlidir. Dil qaydalarının şüurlu mənimsənilməsi leksik bazanın zənginləşməsinə stimul verir və şagirdlərin nitqin inkişafında mühüm rol oynayır. Şagirdlərin cümlə qurmaq bacarıqlarının inkişafı, bu sahədə möhkəm vərdişlərinin yaranması onlarda şifahi və yazılı nitq mədəniyyətini formalaşdırır.

Dilçi-metodistlərdən B.N.Qolovin, T.A.Ladıjenskaya, M.R.Lvov, N.S.Rojdestvenskiy, L.P.Fedorenko, Q.K.Lidman-Orlova, M.P.Senkeviç və başqaları nitq mədəniyyəti və nitq inkişafı məsələlərindən danışarkən qrammatik normaların-dil qaydalarının linqvodidaktik əsas kimi mühüm rol oynadığını göstərmişlər.

Prof.A.Abdullayevin "Müəllimin nitq mədəniyyəti haqqında" və "Nitq mədəniyyəti və natiqlik məharəti haqqında" kitabları bu məsələ ilə bağlı mötəbər mənbələrdən sayıla bilər [2, s.91].

Prof. M.Həsənovun ayrı-ayrı vaxtlarda çap etdirdiyi bir sıra yazılarında qrammatik qaydaların-dil qaydalarının şagirdlərin nitq mədəniyyətinin formalaşdırılmasında rolundan danışılır.

Prof. H.Balıyevin "Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası" kitabında nitq inkişafı üzrə işə və Azərbaycan dili dərslərində üslubiyyat üzrə işlərin təşkilinə yer verilir, şagirdlərin nitq mədəniyyətinin formalaşmasında qrammatikanın-dil qaydalarının rolundan danışılır. O yazır: "Əslində, Azərbaycan dili və ədəbiyyatı müəlliminin fəaliyyətini onun şagirdlərinin nitq və yazı mədəniyyətinin səviyyəsinə görə qiymətləndirmək ən ədalətli yanaşmadır. Nitq inkişafı və rabitəli nitqin nəzəri məsələləri həmişə müəllimlərin, metodika üzrə tədqiqat aparan alimlərin diqqət mərkəzində olmalıdır" [6, s.26].

Daha sonra alim hər hansı bir dildə nitq vərdişlərinə yiyələnməyin əsas istiqamətləri kimi lazımi lüğət ehtiyatının olmasını, düzgün ədəbi tələffüz və ifadəli oxu

vərdişlərinin inkişafını, cümlə qurmaq vərdişlərinin inkişafını, nitqin üslubca zənginləşdirilməsini müəyyənləşdirir.

Görkəmli dilçi-metodistlərin, demək olar ki, əksər qismi bu fikirdədir ki, Azərbaycan dili və ədəbiyyatının müştərək problemi olan nitq mədəniyyəti məsələlərinin həlli üçün dil qaydaları ilə əlaqəli leksik işlərə, yəni lüğət ehtiyatının artırılması məsələlərinə görə hələ çox işlər görülməlidir.

Düzgün nitqin formalaşması, əlbəttə, dil qayda-qanunlarının şüurlu şəkildə mənimsənilməsi və onların leksika ilə inteqrasiyası zəminində praktik tətbiq edilməsindən çox asılıdır.

Professor N.B.Cəfərova yazır: "Azərbaycan dili dərslərində dil qaydaları şagirdlərin lüğət ehtiyatını zənginləşdirən mənbələrdən biridir. Dil qaydaları şagirdlərin əvvəl əldə etdikləri nitq təcrübəsi əsasında yaranır və praktik nitq prosesində ondan istifadə edilir. Dil qaydaları dərslərində elə sözlər üzərində iş aparmaq lazımdır ki, şagirdlər həmin sözlərə praktik nitqdə, dərsliklərdə rast gəlmiş olsunlar, yəni bu sözlər şagirdlərin lüğət fondunun özəyini təşkil etmiş olsun" [7, s. 294].

Azərbaycan dili fənn kurikulumunda Azərbaycan dili təlimində dil qaydalarının öyrədilməsindən əldə edilən təlim nəticələrinin leksika ilə inteqrativ tədrisi həm ümumi, həm də hər bir sinif üzrə ayrıca müəyyənləşdirilmişdir.

Siniflər üzrə problemin quruluşu fərqlənir. Hər sinifin özünəməxsus öyrənilən problemləri, tələbləri vardır. Bu "zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir" adlı ümumi bir müddəa müxtəlif etaplara bölünür, siniflər üzrə öyrədilməsi nəzərdə tutulan dil qaydaları konkret məzmun standartları şəklində qərarlaşır.

Belə ki, Azərbaycan dilinin, o cümlədən dil qaydalarının tədrisində lüğət üzrə işlərin inteqrasiyasının müstəsna əhəmiyyəti vardır. Dil qaydası kimi, nitq hissələrinin qrammatik-leksik təsnifi geniş məzmuna malikdir. Dil qaydalarının qrammatik-leksik təsnifi fonetika, morfologiya və sintaksislə, şagirdlərin şifahi və yazılı nitqlərinin inkişafı, onların lüğət ehtiyatı, dilimizin orfoqrafik xüsusiyyətləri ilə sıx əlaqədardır. Nitq hissələrinin dair dil qaydalarının leksika ilə inteqrativ tədrisi ilk növbədə lüğət ehtiyatının zənginləşməsinə və nitq inkişafına geniş imkanlar yaradır.

Dil qaydalarının leksika ilə inteqrativ tədrisi imkanlarının inkişafetdirici və zənginləşdirici mərhələsi haqqında danışsaq, deyə bilərik ki, bu sahədə ibtidai siniflərdə ilkin anlayışlar verilir. Tədrisin sonrakı mərhələlərində dil qaydalarının leksika ilə inteqrativ tədrisi imkanları, ardıcıl davam etdirilmir, bir növ, unudulur. Hər halda bu nöqsan metodikamızda müəyyən boşluqların olduğunu göstərir. Əslində necə olmalıdır? Biz bu suala əhatəli və dolğun cavab verməyə ehtiyac hiss edirik. Məsələnin mahiyyəti belədir:

I-IV siniflərdə fonetikadan sonra leksika, daha sonra söz yaradıcılığı, ondan da sonra morfoloji vahidlər öyrədilir. Bu zaman konkret şəkildə demiş olsaq, nitq hissələrinin tədrisi ilə leksik işlər nitqi zənginləşdirmə meydanına çevrilməlidir.

Belə ki, nitq hissələri üç əsasda, üç kriteriyaya istinad edilərək öyrədilməlidir.

Bu didaktik elmi kriteriya hər bir nitq hissəsinin leksik mənası, morfoloji əlaməti və sintaktik əsası kimi səciyyələndirilir. Qeyd edilən prinsip rus dilçilərindən M.T.Baranov tərəfindən keçən əsrin sonuna yaxın zamanlarda əsaslandırılmış və Azərbaycan dilçi-metodistlərindən H.Balıyev, V.Qurbanov və A.Rəhimov, N. Cəfərova və b. tərəfindən geniş şəkildə şərh olunmuşdur. Bu ideyanın mahiyyəti ondan ibarətdir ki, nitq hissələrini öyrədərkən sözün leksik mənası, morfoloji quruluşu, habelə sintaktik funksiyası açılmalıdır, çünki bunlar olmadan ümumi qrammatik əlamətlərinə görə qruplaşan sözləri və ya nitqin hissələrini analiz-sintez etmək mümkünsüzdür. Bu üç kriterial tələbin hər ikisi üçün ümumi olan cəhət üçüncüsüdür. Yəni nitq hissələri cümlədən seçilərək, düşüncə obyektinə cümlədə götürülür və şərh olunur. Həmin prinsiplərdən birincisi leksik məna amilidir. Bu da o deməkdir ki, nitq hissəsinin leksik mənası var ya yoxdur? Bu necə müəyyən olunur? Əlbəttə, cümlə amilinə görə və yaxud da söz birləşməsinə görə. Məsələn, balıqçı, dəmirçi, otlaq, güllü, çaydan və s. sözlərdə leksik mənanı sözlərindəki morfemə görə müəyyən edirik.

Bəs yaxşı, gözəl, xeyli, az, çox sözlərini necə, birləşmə amili və ya cümlə tərkibində işlənmə amili olmadan təyin etmək mümkündürmü? Əlbəttə, mümkün deyil. Halbuki yaxşı adam, yaxşı danışır, gözəl insan, gözəl danışmaq, xeyli vaxt, xeyli çalışmaq, az danış, az din və s. nümunələr olmadan həmin omomorfemlərin sifət və ya zərf mənası kəsb etməsini müəyən etmək qeyri-mümkündür. Eyni zamanda dil qaydaları leksik məna nəzərə alınmadan necə təsəvvür edilə bilər? Lüğət tərkibinin inkişafı və dəyişmə qanunauyğunluğunu tədqiq edən H.Ə.Həsənov yazırdı: “Leksikologiya morfologiya və söz yaradıcılığı ilə daha yaxındır, çünki bunların hər üçü dilin lüğət tərkibi, onun leksik-qrammatik təsnifi, sözün semantik və morfoloji strukturları ilə bağlıdır”[5, s.6]. “Söz öz daxili formasına görə üç struktur elementdən ibarətdir: fonoloji, morfoloji, semantik” [5, s.31].

Ümumiyyətlə, dil dərslərini müasir tələblər səviyyəsində, müasir metodlardan istifadə yolu ilə quran müəllimlərin təcrübəsi göstərir ki, Azərbaycan dili dərslərində dil qaydalarının qrammatik-leksik təsnifi və inteqrativ tədrisi şagirdlərdə təhlil-tərkib vərdişlərini inkişaf etdirir, bir əməliyyatdan digərinə keçid onların əqli qabiliyyətində çeviklik yaradır, daha diqqətli olmağa, məntiqi düşüncəyə və yaradıcılığa sövq edir.

Dil qayaları fonetika, morfologiya və sintaksislə, şagirdlərin şifahi və yazılı nitqlərinin inkişafı, onların lüğət ehtiyatı, dilimizin orfoqrafik xüsusiyyətləri ilə sıx əlaqədardır. Dil qaydalarının leksika ilə inteqrativ tədrisi ilk növbədə lüğət ehtiyatını zənginləşdirir. Lüğətin zənginliyi dilin zənginliyi üçün çox mühüm amildir. Odur ki, şagirdlərin təlim nəticələrinin yüksəldilməsinə nail olmaq üçün müvafiq strategiyalar, fəal təlim metod və üsullardan istifadə etməklə nitq hissələrinin qrammatik-leksik təsnifi və inteqrativ tədrisinin təşkilinə nail olmaq lazımdır.

Uşaqlarda sözün qrammatik formasına münasibətin nə vaxtdan yaranması, sözün əşyavi mənasına münasibətin onun qrammatik mənasına münasibətə nə vaxtdan keçməsi məsələsi L.İ.Aydarova tərəfindən işlənmişdir. O, belə bir nəticəyə gəlmişdir

ki, sözlə təsirin müəyyən qaydası mənimsənilərkən uşaqlarda sözün ümumi başa düşülməsi də dəyişir. Əvvəllər onlar üçün vahid, hissələrinə ayrılmayan söz mürəkkəb semantik və morfoloji cəhətləri olan dəyişkən sistemə çevrilir [8, s.208].

Dil qaydası kimi, qrammatika Azərbaycan dilində olan sözlərin formalarından bəhs edən təlimdir. "Qrammatika bəhsi fonetika və sintaksislə, şagirdlərin şifahi və yazılı nitqlərinin inkişafı, onların lüğət ehtiyatı, dilimizin orfoqrafik xüsusiyyətləri ilə sıx əlaqədardır" [2, s.123].

Qrammatika dil qaydası olmaqla, obyekti müxtəlif qrammatik məna kəsb edən sözlərdir. Sözün qrammatik mənasının nitqdə əhəmiyyəti çox böyükdür.

Birincisi, qrammatik məna ilk növbədə nitqdə sözün anlaşılmasını dəqiqləşdirir, məsələn, sifət əşyanın əlamətini, keyfiyyətini, dadını, həcmini, fiziki xüsusiyyətini, psixoloji halını, həmçinin, sadalanan əlamətlərin dərəcəsini bildirir.

İkincisi, qrammatik məna cümlədə sözlərin əlaqəsini bildirir. Məsələn, "Nabatxanım gəldi" cümləsində "Nabatxanım" mübtəda, "gəldi" sözü isə xəbərdir və onlar bir-biri ilə uzlaşmışdır.

Üçüncüsü, qrammatik məna danışan şəxsin haqqında danışdığı əşya və hadisəyə münasibətini bildirir. Məsələn: Mən kəndə gedirəm, mən kəndə gedəcəyəm, mən kəndə gedəsiyəm, gərək mən kəndə gedəm, mən kəndə getməliyəm, mən kəndə gedəsi idim, mən kəndə gedərdim, mən kəndə getmişdim və s. Cümlədəki feilin qrammatik mənaları şəxs əvəzliyinin (mən –I şəxsin təki) kənd (yer anlayışı) və getmək (hərəkət) sözlərinə müxtəlif münasibətlərini bildirir. Sözün qrammatik mənası leksik mənasına nisbətən çoxdur. Məsələn, "kitab" sözünün bir leksik mənası olduğu halda, bir neçə qrammatik mənası vardır (əşyanın adını bildirir, yəni isimdir, təkdir, konkretdir, cansızdır, adlıq haldadır və s.).

Akademik V.V.Vinoqradov yazır ki, leksik məna sözün aid olduğu nitq hissəsinin, qrammatik kateqoriyanın xassəsindən, ictimai məna daşıyan və onun işlədilməsini müdafiə edən kontekstdən, başqa sözlərlə konkret əlaqələrindən, ümumiyyətlə, məna çalarlığına görə yaxın mənalı sözlərlə semantik münasibətindən, ekspressiv-üslubi rəngindən asılı olur [4, s.6].

Müəllim şagirdləri sözləri müəyyən mənaya malik olan bir vahid kimi qavramağa, bu mənanın bir qrup sözə aid olduğu və xüsusi forma kəsb etdiyini dərk etməyə, sözün leksik mənası ilə qrammatik mənası arasındakı əlaqəni-inteqrasiyanı müəyyənləşdirməyə yönəltməli, ardıcıl iş prosesində şagirdlərin lüğət ehtiyatını yeni söz və ifadələrlə zənginləşdirməlidir. Belə ki, hər bir dil qaydasının tədrisində leksik iş üçün potensial imkanlar mövcuddur, bu imkanları reallaşdırmaq isə hər bir müəllimin borcudur.

Dil qaydalarının tədrisində şagirdlərin lüğət ehtiyatını inkişaf etdirmək üçün aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

- ayrı-ayrı dil faktları, hadisələri üzərində müşahidə aparma, qruplaşdırma və ümumiləşmiş fikir söyləmək üçün situasiyanın yaradılması;

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 73-81*

• keçmiş bilikləri xatırlatmağa xidmət edən çalışmalar üzərində işin təşkili;

• məzmunun şüurlu mənimsənilməsinə xidmət edən çalışmalar üzrə işin təşkili və s.

Qrammatik təhlil prosesində hər hansı nitq hissəsinə aid qrammatik əlamətlər müəyyənləşdirilərkən sözün leksik mənası nəzərə alınır. Əsas nitq hissələri isə müstəqil leksik mənaya malik olan söz qruplarından təşkil olunur. Şagirdlər sözün qrammatik forması ilə leksik mənası arasında mövcud olan əlaqələri başa düşdükdə, onların müxtəlif nitq hissələrində birləşməsini və bu nitq hissələrinə aid kateqoriyaları daha şüurlu mənimsəyirlər.

Azərbaycan dilinin təliminin əsas istiqaməti şagirdlərin nitq bacarıqlarının inkişaf etdirilməsinə yönəlir. Nitq bacarıqlarının inkişafının əsas komponentlərindən biri isə lüğət ehtiyatının artırılmasıdır.

Ona görə də dil qaydalarının tədrisi prosesində şagirdlərin lüğət ehtiyatını zənginləşdirməklə bağlı müxtəlif işlər aparılır. Azərbaycan dili kurikulumunda lüğət işi üçün ayrıca vaxt ayrılmır. Lakin şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi sistematik bir xarakter daşıyır və dil qaydaları üzrə bütün materialların üzvi bir hissəsini təşkil edir. Şagird məktəbə çox az söz ehtiyatı ilə gəlir, məktəbə gəldiyi vaxtdan başlayaraq onun leksikonuna yeni-yeni sözlər daxil olmağa başlayır.

Sözün leksik mənası üzərində iş söz yaradıcılığı ilə qırılmaz əlaqədə həyata keçirilir. Söz yaradıcılığı üzrə işlər isim, sifət, feil, say, əvəzlik, zərfin tədrisi ilə əlaqəli şəkildə aparıldığına görə sözlərin leksik mənaları və qrammatik mənalarının başa düşülməsi üçün zəmin yaranır. Azərbaycan dilinin tədrisinə kompleks münasibət bəsləməyi əsas götürməklə, dil qaydalarından hər bir mövzunun tədrisi prosesində dilin bütün sahələri üzrə iş aparılması nəzərdə tutulur. Məsələn, IV sinif şagirdlərinə sözdüzəldici şəkilçilər haqqında məlumatın çatdırılması və yeni sözlərin yaranması mexanizmini mənimsətmək üçün mövzu üzrə suallardan istifadə olunur:

-Uşaqlar, hansı nitq hissələrini tanıyırsınız? (isim, sifət, feil).

-İsim nəyə deyilir, hansı suala cavab olur? (Əşya bildirən, kim? nə? hara? sualına cavab olan sözlərə isim deyilir. Məsələn, kim? Lalə, nə? gül, hara? Bakı və s.).

-Sifət nəyə deyilir və hansı suallara cavab olur? (Əşyanın əlamət və keyfiyyətini bildirən, necə? nə cür? suallarına cavab olan sözlərə sifət deyilir. Məsələn, necə? böyük, nə cür? acı və s.).

-Feil nə bildirir və hansı suallara cavab olur? (Feil hərəkət bildirir, nə edir? nə etdi? nə edəcək? suallarından birinə cavab olur. Məsələn, nə etdi? getdi, uçdu, açıldı; nə edir? yazır, baxır; nə edəcək? gələcək, danışacaq və s.).

-Ümumiyyətlə, nitq hissəsi dedikdə nəyi başa düşürsünüz, nitq hissələrinə nələr daxildir?

-Nitq hissələri dedikdə nitqə daxil olan bütün sözlər başa düşülür.

Yazı lövhəsinə söz və cümlələr yazılıb mövzu baxımından təhlil edilir.

-Verilmiş sözlərdən hansılar eyniköklüdür? Onların mənalarını izah edin, hansı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 73-81*

suallara cavab olduqlarını söyləyin.

Balıq suda yaşayır. Balıqçı suya tor atdı.

-Bu iki cümlədə eyniköklü sözlər balıq və balıqçıdır. Balıq nə? balıqçı kim? sualına cavab olur.

Təyyarəçi təyyarəni inamla idarə edir.

-Bu cümlədə eyniköklü sözlər təyyarəçi və təyyarə sözləridir. Təyyarəçi sözü insan bildirir, kim? sualına cavab olur. Təyyarə sözü əşya bildirir, nə? sualına cavab olur.

Yəni, dilimizdə elə şəkilçilər də vardır ki, müəyyən sözlərə qoşulmaqla yalnız onların şəklinə deyil, məzmununa da güclü təsir göstərir, yeni mənalı sözlər alınır. Belə şəkilçilər leksik (sözdüzəldici) şəkilçilər adlanır. Əgər şagird məktəbin, məktəbə, məktəbi, məktəbdə, məktəbdən, məktəblər, məktəbimiz sözlərində sözdəyişdirici şəkilçilərin təsirilə məktəb sözündən başqa heç bir yeni söz öyrənmirsə, ot sözündən otlaq sözü düzəltdikdə yeni söz öyrənir.

Beləliklə, leksik şəkilçilər şagirdlərin lüğət ehtiyatını zənginləşdirir, genişləndirir və dəqiqləşdirir. Şagirdlərin nitqinə bütün qrammatik formalarla qırşılıqlı əlaqədə müəyyən leksik minimum daxil edilir.

Dil qaydalarının tədrisi prosesində lüğət işinin səmərəli təşkili üçün müəllimin aşağıdakıları bilməsi zəruridir:

- şagirdlərin nitqində həmin dil qaydalarından istifadə edilməsinin xüsusiyyətləri;
- həmin dil qaydalarına dair şagirdlərin fəal və qeyri-fəal lüğəti;
- bu sözlərin mənasını başa düşməyin düzgünlüyü dərəcəsi;
- şagirdlərin həmin mövzunu mənimsəmə imkanları;
- dərsliyin həmin mövzu üzrə leksik bazası;
- dərslikdə həmin mövzu üzrə çalışmaların xarakteri və sistemi;
- həmin mövzunun tamamlanmasını tələb edən məsələlər;
- həmin mövzu ilə əlaqədar şagirdlərin öyrənməli olduqları yeni sözlər;
- mövzu üzrə lüğət işinin səmərəli keçirilməsini təmin edən sistem[3, s.147].

Dil qaydalarını təşkil edən leksik vahidlər-sözlər dərketmənin əsas mənbəyidir. Hər hansı söz bilavasitə varlıqla bağlı olub, ətraf aləmdəki əşyanın, hadisənin, prosesin, keyfiyyət və hərəkətin adlandırılmasına xidmət edir. İnsanın söz ehtiyatı nə qədər çoxdursa, biliyi də o qədər hərtərəfli və dərin olur [3, s. 4].

Buradan aydındır ki, lüğətin zənginliyi dilin zənginliyi üçün çox mühüm şərtdir. Hər kəsin leksik bazası-lüğət ehtiyatı nə qədər zəngin olarsa, onun nitqi də bir o qədər zəngin olar. Professor Y.Kərimovun monoqrafiyasında bu problem öz geniş həllini tapmışdır. Y.Kərimov yazır ki, uşaqlarda sözə linqvistik münasibətin yaradılması vacibdir. Onlar sözün qrammatik forması ilə leksik sistemi arasında mövcud olan əlaqələri(qeyd: inteqrasiyanı) başa düşməlidirlər [3, s.139]. Buradan belə nəticə çıxır ki, şagirdləri mükəmməl nitq mədəniyyətinə yiyələndirmək, onların dilində sözlərdən məharətlə və hərtərəfli istifadə edilməsini təmin etmək üçün dil qaydaları-

nın tədrisində aparılan leksik işlərin müstəsna əhəmiyyəti vardır. Həmçinin ibtidai siniflərdə də öyrədilən dil qaydaları praktik-nəzəri xarakter daşıyır. Burada öyrədilənlər yuxarı siniflərdə öyrədilən dil qaydalarının leksika inteqrasiyasına zəmin yaradır.

## Ədəbiyyat


1. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu)(I - XI siniflər). https://arti.edu.az/wp-content/uploads/2025/04/1-z%C9%99rbaycan-dili-Kurikulum-2013.pdf
2. Abdullayev A. S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, 262 s.
3. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. 4 cilddə, IV c., Bakı: Maarif, 1985, 468 s.
4. Abdullayev N.Ə. Ədəbi tələffüz təliminin metodikası. Bakı: Maarif, 1986, 162 s.
5. Abdullayev Ə. Azərbaycan dili dərslərinin səmərələşdirilməsi təcrübəsindən // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1983, №4, s. 41-45
6. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası (dərslik). Bakı: Qismət, 2014, 384 s.
7. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (Dərslik). II hissə. – Bakı: ADPU, 2019. 430 s.
8. Kərimov Y.Ş. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı: Maarif, 1997, 476 s.


**Набат Джафарова**

## ИНТЕГРАТИВНОЕ ОБУЧЕНИЕ ЯЗЫКОВЫМ ПРАВИЛАМ С ЛЕКСИКАНОМ

### Резюме

В статье обсуждается важность интеграции языковых правил с лексикой в процессе обучения. Интегративное обучение правилам языка, связанным с частями речи и лексикой, прежде всего, проясняет понимание слов в речи и обогащает словарный запас. В формировании лексических понятий важную роль играет овладение правилами языка, в том числе определениями частей речи и правилами морфологического анализа, специально выделяющими части речи. На этом этапе особого внимания заслуживают три требования: осознанный подход учащихся к проблеме и хорошее понимание содержания языковых правил; прочно запомнить изученное; их способность быстро и правильно применять изученную информацию в устной и письменной речи.

Одной из ошибок при обучении правилам языка является механическое запоминание этих правил. Проведение лексической работы и выработка навыков построения предложений являются основными результатами

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 73-81*

сознательного усвоения языковых правил. Роль лексической базы и предложений в развитии устной речи неоспорима.

Работа над словарным запасом имеет исключительное значение в обучении языковым нормам азербайджанского языка. Грамматико-лексическая классификация частей речи, как и языковое правило, имеет широкую сферу применения. Грамматико-лексическая классификация языковых правил тесно связана с фонетикой, морфологией и синтаксисом, развитием устной и письменной речи учащихся, их словарным запасом, а также орфографическими особенностями нашего языка.

**Ключевые слова: азербайджанский язык, языковые правила, словарный запас, интеграция, обучение**.

**Nabat Jafarova**

**INTEGRATIVE TEACHING OF LANGUAGE RULES WITH A LEXICAN**

**Summary**

The article discusses the importance of integrating language rules with vocabulary in the learning process. Integrative teaching of language rules related to parts of speech and vocabulary, first of all, clarifies the understanding of words in speech and enriches vocabulary. In the formation of lexical concepts, an important role is played by mastering the rules of language, including definitions of parts of speech and rules of morphological analysis that specifically highlight parts of speech.

At this stage, three requirements deserve special attention: a conscious approach of students to the problem and a good understanding of the content of language rules; firmly remember what they have learned; their ability to quickly and correctly apply the information they have learned in oral and written speech.

One of the mistakes in teaching language rules is the mechanical memorization of these rules. Carrying out lexical work and developing sentence construction skills are the main results of conscious acquisition of language rules. The role of the lexical base and sentences in the development of oral speech is undeniable.

Working on vocabulary is of exceptional importance in teaching the language norms of the Azerbaijani language. The grammatical and lexical classification of parts of speech, like the language rule, has a wide scope of application. The grammatical and lexical classification of language rules is closely related to phonetics, morphology and syntax, the development of oral and written speech of students, their vocabulary, as well as the orthographic features of our language.

**Key words: Azerbaijani language, language rules, vocabulary, integration, training.**

**Rəyçi: professor F.R. Xalıqov**